# Türk dünyası

## regional təhlükəsizlik və müdafiə sahəsində sarsılmaz güc



**Beynəlxalq münasibətlər sisteminin fundamental transformasiyalara məruz qaldığı və yeni güc mərkəzlərinin formalaşdığı bir dövrdə ortaq tarixi, mədəniyyəti və dili olan Türk dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq strateji mərhələyə qədəm qoymuşdur.**

Bu çoxşaxəli və dərinləşən tərəfdaşlığın institusional çərçivəsinin möhkəmləndirilməsində Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və Türk Dövlətləri Təşkilatı (TDT) həlledici rol oynayır. Qarabağ Zəfəri ilə yeni impuls qazanan bu əməkdaşlıq 2024-cü ildə keçirilən yüksək səviyyəli görüşlər, birgə təlimlər və konkret layihələrlə daha da güclənmiş, 2025-ci ilə daha iddialı hədəflər və dərin inteqrasiya perspektivləri ilə daxil olmuşdur.

2008-ci ildə İstanbulda təsis edilən TÜRKPA Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlamentləri arasında körpü rolunu oynayaraq siyasi dialoqun dərinləşdirilməsi və ortaq maraqların beynəlxalq platformalarda müdafiəsi üçün mühüm zəmin yaratmışdır. Assambleyanın Təhlükəsizlik və Müdafiə Məsələləri üzrə Komissiyası kimi ixtisaslaşmış qurumları üzv ölkələrin terrorizm, separatizm, ekstremizm, kibertəhdidlər və qeyri-qanuni miqrasiya kimi mürəkkəb problemlərə qarşı vahid parlament mövqeyinin və milli qanunvericiliklərinin formalaşdırılmasına əhəmiyyətli töhfələr verir.

**(davamı 9-cu səhifədə)**




# Türk dünyası - regional təhlükəsizlik və müdafiə sahəsində sarsılmaz güc



(əvvəli 1-ci səhifədə)

2024-cü ilin may ayında Bakıda keçirilən TÜRKPA-nın Təhlükəsizlik və Müdafiə Komissiyasının iclasında regional təhlükəsizlik çağırışları, sərhəd təhlükəsizliyinin gücləndirilməsi və hibrid təhdidlərlə mübarizə məsələləri ətrafında geniş müzakirələr aparılmışdır.

Azərbaycanla Türkiyə arasındakı sarsılmaz qardaşlıq və strateji müttəfiqlik münasibətləri təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın ən parlaq nümunəsidir. 2021-ci ilin iyununda qədim Şuşa şəhərində imzalanmış Müttəfiqlik haqqında Bəyannamə bu münasibətləri keyfiyyətcə yeni müstəviyə çıxararaq tərəflərdən birinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz baş verdiyi təqdirdə, birgə məsləhətləşmələrin aparılmasını və BMT Nizamnaməsinə uyğun olaraq zəruri yardımın göstərilməsini nəzərdə tutur. Bu bəyannamə ilə iki ölkə arasında müdafiə sahəsində əlaqələr misli görünməmiş səviyyəyə yüksəlmişdir. "TurAz Qartalı", "Sarsılmaz qardaşlıq", "Mustafa Kamal Atatürk", "Qış təlimi", "EFES" kimi keçirilən birgə hərbi təlimlər regionda potensial təcavüzkarlara qarşı çəkindirici mesajların verilməsinə xidmət edir. 2024-cü ilin oktyabrında Bakıda və Naxçıvanda keçirilən "Mustafa Kamal Atatürk - 2024" təlimində ən müasir silah sistemləri və komanda-idarəetmə üsulları sınaqdan keçirilmişdir. Eyni zamanda iki ölkənin müdafiə sənayesi kompleksləri arasında əməkdaşlıq da dərinləşir. Azərbaycanın Türkiyənin istehsalı olan "Bayraktar TB2" və digər pilotsuz uçuş aparatlarından (PUA) effektiv istifadəsi və bu sahədə birgə istehsal imkanlarının araşdırılması gələcək əməkdaşlığın strateji istiqamətləridir.

Türkiyə Mərkəzi Asiyanın qardaş respublikaları Qazaxıstan, Qırğızıstan və Özbəkistanla da müdafiə və təhlükəsizlik sahəsində münasibətləri strateji tərəfdaşlıq əsasında inkişaf etdirir. Qazaxıstanla imzalanmış Genişləndirilmiş Strateji Tərəfdaşlıq sazişi çərçivəsində hərbi-texniki əməkdaşlıq, hərbi kadrların hazırlanması və birgə təlimlər intensivləşmişdir. 2024-cü ilin fevralında Ankara və Astanada keçirilən müdafiə sənayesi məsləhətləşmələri bu əməkdaşlığın konkret nəticələrini göstərir. Özbəkistanla da son illərdə təhlükəsizlik sahəsində dialoq canlanmış, 2023 və 2024-cü illərdə iki ölkənin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə birgə antiterror təlimləri keçirilmişdir. Qırğızıstan da Türkiyənin hərbi təcrübəsindən, xüsusilə PUA texnologiyalarından faydalanmaqda maraqlıdır və bu istiqamətdə konkret addımlar atılır. Bu TDT çərçivəsində çoxtərəfli formatda genişləndirilir.

Türk Dövlətləri Təşkilatı üzv ölkələr arasında siyasi dialoq və əməkdaşlığın platforması kimi, təhlükəsizlik məsələlərinin müzakirəsi və ortaq strategiyaların formalaşdırılması üçün mühüm təşəbbüslər irəli sürür. TDT-yə üzv dövlətlərin müdafiə nazirləri müavinlərinin və təhlükəsizlik şuraları katiblərinin müntəzəm görüşləri bu sahədə koordinasiyanın gücləndirilməsinə xidmət edir. Məsələn, 2024-cü ilin noyabrında Qırğızıstanın ev sahibliyi ilə keçirilən Təhlükəsizlik Şuraları Katiblərinin iclasında regional təhlükəsizlik vəziyyəti, terrorizm, ekstremizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlığın dərinləşdirilməsi yolları müzakirə olunmuşdur. TDT Zirvə toplantılarında qəbul edilən bəyanatlarda da təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanmışdır. TDT çərçivəsində kibertəhlükəsizlik mərkəzinin yaradılması, sərhəd təhlükəsizliyi üzrə təcrübə mübadiləsinin artırılması kimi təşəbbüslər də gündəmdədir və cari ildə bu istiqamətlərdə daha konkret addımların atılması gözlənilir.









Müdafiə sənayesi sahəsində əməkdaşlıq Türk dövlətlərinin strateji müstəqilliyini artırmaq və xarici asılılığı azaltmaq baxımından həyati əhəmiyyət kəsb edir. Türkiyənin son illərdə bu sahədə əldə etdiyi nəzərəçarpacaq uğurlar, xüsusilə PUA, hərbi gəmiqayırma, zirehli texnika və elektron müharibə sistemləri istehsalında qazandığı təcrübə digər qardaş ölkələr üçün həm cəlbedici model, həm də potensial tərəfdaşlıq imkanları yaradır. Azərbaycan və Türkiyə arasında bu sahədə sıx əməkdaşlıq Qazaxıstan və Özbəkistanında marağına səbəb olub. 2023-cü ildə İstanbulda keçirilən Beynəlxalq Müdafiə Sərgisi (IDEF) zamanı Türk dövlətlərinin müdafiə sənayesi şirkətləri arasında çoxsaylı görüşlər keçirilmiş, birgə layihələr müzakirə edilmişdir. 2024-cü ildə də bu tendensiya davam etmiş, birgə tədqiqat və inkişaf (R&D) layihələrinin, hətta gələcəkdə TDT çərçivəsində vahid müdafiə sənayesi fondunun yaradılması kimi daha ambisiyalı hədəflər müzakirə olunmuşdur.

Cari il aprel ayının 15-də Bakı Türk Dövlətləri Parlament Assambleyasının mühüm toplantısına ev sahibliyi etdi. "Türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi: parlamentlərin rolu" mövzusuna həsr olunmuş TÜRKPA üzv parlamentlərinin müdafiə və təhlükəsizlik üzrə komitə sədrlərinin ikinci iclası, regionda və Türk dünyasında təhlükəsizlik məsələlərinə dair artan əməkdaşlığı əks etdirdi.

TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er bu kimi görüşlərin regionun sabitliyi üçün əhəmiyyətini vurğuladı, ortaq tarix, mədəniyyət, dil və mənəvi dəyərlərə əsaslanan Türk dünyasının birliyinin onu yüksələn qlobal güc mərkəzinə çevirdiyini və bu birliyin bir çox sahədə artıq strateji tərəfdaşlıq səviyyəsinə çatdığını bildirdi. Baş katib Türk dövlətlərinin Avrasiyada və onun hüdudlarından kənarda təhlükəsizliyin təminində fəal rol oynadığına diqqət çəkərək terrorizm, transsərhəd təhdidlər və qonşu regionlardakı qeyri-sabitlik kimi ümumi çağırışların mövcudluğunu qeyd etdi. Mehmet Süreyya Er birgə hərbi təlimlər, müdafiə sənayesində əməkdaşlıq, terrorizmlə, kibertəhlükəsizlik və hibrid təhdidlərlə mübarizədə ortaq fəaliyyətin gücləndirilməsinin ümumi potensialın səmərəli reallaşdırılmasına imkan yaradacağını bildirdi və bunun üçün sistemli institusional dialoq və koordinasiyanın vacibliyini önə çəkdi. Baş katib Bakı toplantısını bu istiqamətdə atılmış mühüm addım kimi dəyərləndirdi.

İclasda çıxış edən Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin hüquq, siyasi məsələlər, xarici əlaqələr və müdafiə komitəsinin sədri Yasemi Öztürk ortaq köklərə, tarixə və dəyərlərə söykənən bağların strateji əməkdaşlıq sahəsində özünü göstərməsinin zəruriliyini qeyd etdi. Tarix, dil və mədəniyyət birliyinin müdafiə və təhlükəsizlik sahələrində də əməkdaşlıq üçün möhkəm zəmin yaratdığını bildirərək Türk dövlətləri arasında davamlı dialoqun və müdafiə sənayesində ortaq infrastrukturun qurulmasının strateji əhəmiyyətini vurğuladı.

Bakıda keçirilən bu yüksək səviyyəli görüş Türk dövlətlərinin parlamentlər səviyyəsində də təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmək, ortaq çağırışlara qarşı birgə strategiyalar hazırlamaq və Türk dünyasının regional və qlobal təhlükəsizliyə töhfəsini artırmaq əzmində olduğunu bir daha nümayiş etdirdi.

TÜRKPA-nın parlament dəstəyi və TDT-nin siyasi liderliyi ilə Türk dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində güclənən əməkdaşlıq, eyni zamanda Türk dünyasının XXI əsrdə beynəlxalq aləmdə artan nüfuzunun və strateji çəkisinin təzahürüdür. 2024-cü ildə atılan addımlar və 2025-ci il üçün nəzərdə tutulan birgə təlimlər, kibertəhlükəsizlik və hibrid təhdidlərlə mübarizədə dərinləşən koordinasiya bu əməkdaşlığın dayanıqlı və perspektivli olduğunu sübut edir. Türk dünyası təhdidlərə qarşı çiyin-çiyinə dayanaraq və gələcəyə birlikdə addımlayaraq, öz taleyini özü müəyyən etmək əzmini bütün dünyaya göstərir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**